İqtisadi Tədqiqatlar Mərkəzi (İTM)

Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)

**“Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək” layihəsi**

# “Küçə ticarətində inzibati baryerlərin müəyyənləşdirilməsi"

## mövzusunda tədqiqat yazısı

*Bakı - Sentyabr 2013*

# Xülasə

**<u>Tədqiqatın məqsədi</u>**- küçə ticarətinə mane olan inzibati baryerləri müəyyənləşdirilmək (1), onun yaratdığı sosial-iqtisadi riskləri idarə etmək və mövcud problemləri həll etmək üçün təkliflər hazırlamaqla (2) kiçik sahibkarlığın inkişafına dəstək göstərməkdən ibarətdir.

**<u>Tədqiqatın metodologiyasını</u>** – emprik araşdırma metodun və uyğun xarici təcrübənin öyrənilməsi təşkil edir. Tədqiqat zamanı dərinləşdirilmiş müsahibələr yolu ilə daxildəki vəziyyət dəyərləndirilmiş, beynəlxalq təcrübənin öyrənilməsi ilə mütərəqqi qaydalar mənimsənilmiş və onu yerli xüsusiyyətləri nəzərə alınmaqla tətbiq edilməsi yolları nəzərdən keçirilmişdir.

**<u>Tədqiqatın nəticələri</u>** - küçə ticarətinə inzibati baryerləri və korrupsiya risklərini müəyyənləşdirilməklə bu sahədəki problemləri aradan qaldırmaq üçün tövsiyələr hazırlamaqla mövcud dövlət siyasətinə təsir göstərməklə kiçik sahibkarlığın inkişafına dəstək verməkdir.

**<u>Tədqiqatın praktiki əhəmiyyəti</u>** - tədqiqat nəticəsində əldə olunmuş tapıntıların ictimailəşməsi və əlaqədar orqanların diqqətinə çatdırılması yolu ilə küçə ticarətinin daha düzgün tənzimlənməsi ilə siyasət səviyyəsində, inzibati baryerlərin və qeyri-rəsmi ödənişlərin aradan qaldırılması yolu ilə isə kiçik sahibkara birbaşa dəstəklə yekunlaşa bilər.

**<u>Tədqiqatın orijinallığı və yeniliyi</u>** – küçə ticarəti sahəsinə kompleks yanaşma və təhlil bazasında işlənilmiş ilk araşdırma olması onun orijinallığını, inzibati baryerlərin və qeyri-rəsmi ödənişlərin aşkara çıxarılması isə onun yeniliyini müəyyənləşdirir.



**<u>Açar sözlər:</u>** küçə ticarəti, inzibati baryerlər, qeyri-rəsmi ödənişlər


**<u>Akronimlər:</u>** MKİS – Mənzil-Kommunal İstismar Sahəsi, İXM – İnzibati Xətalar Məcəlləsi

**Mündəricat**

Giriş

İ. Azərbaycanda küçə ticarətinin təşkili problemləri

II. Küçə ticarətinin təşkili ilə bağlı mütərəqqi beynəlxalq təcrübə

III. Kücə ticarətçiləri ilə dərinləşdirilmiş müsahibələr və onların təhlili

IV. Nəticə və tövsiyələr

İstifadə olunmuş ədəbiyyatların siyahısı

# Giriş

Kücə ticarəti nəinki inkişaf etməkdə olan Asiya və Afrika ölkələrində də hətta inkişaf etmiş Avropa Birliyi ölkələrində geniş yayılmışdır. Bəzi Avropa ölkələrində küçə ticarətindən şəhər mədəniyyətinin bir hissəsi, bəzilərində isə turistlərin cəlbi üçün vasitə kimi istifadə olunur. Bununla yanaşı müxtəlif ölkələrin bəzilərinin təcrübəsi ilə yaxından tanışlıq göstərir ki, bəzi ölkələrdə biznesin bu növündən əlavə gəlir mənbələrinə çıxış və xalq sənətkarlığının inkişafına dəstək üçün də istifadə edirlər. Ümumiyyətlə isə dünyada küçə ticarətinin çöx müxtəlif formaları ilə qarşılaşmaq olar. Bu formalara çadırlarda satış, bayram yarmarkalarında və sərgilərdə, avtomobillərdə və onların qoşqularında, bazarlarda, turistlər üçün maraq kəsb edən küçə və meydançalarda, ictimai nəqliyyatın dayanacaqlarına giriş və çıxışlarda satış daxildir.

Azərbaycanda küçə ticarəti əsasən insanların gur olduğu ərazilərdə geniş təşəkkül tapıb. Əhalinin çox hissəsinin Bakı şəhərində yaşadığı və işlədiyini nəzərə alsaq paytaxtın küçə və meydanlarında, səkilərdə, bazarların ətrafında, avtobus dayanacaqlarında, metro stansiyalarının giriş-çıxışlarında, eləcə də bu məqsədlə ayrılmamış yerlərdə də küçə ticarətinə rast gəlmək mümkündür.

Azərbaycanda küçə ticarəti mövsumi xarakter daşımaqla da fərqlənır. Xüsusilə də, yaz və yay mövsümündə yol kənarlarında meyvə-tərəvəz satışı daha çox müşahidə olunur. Eyni zamanda, küçə ticarəti günün müxtəlif saatlarına görə də fərqlənə bilir. Müşahidələr xüsusilə də axşam və gecə saatlarında küçə ticarətinin geniş yayıldığını göstərir.

Azərbaycan qanunvericiliyində küçə ticarəti terminə rast gəlmək mümkün deyildir. Odur ki, bir anlayış kimi ona tərifin verilməsi və eyni zamanda onun sərhədlərinin müəyyənləşdirılməsi çox vacibdir. Küçə ticarəti dedikdə küçələrin birində istənilən adda malları (hətta canlıların) satışının və sərgisinin təşkili nəzərdə tutulur. Küçələrə isə dövlətə məxsus olan və giriş-çıxış üçün ödəniş tələb olunmayan küçələr, onların hissələri, səkilər, çimərliklər və digər ərazilər daxildir.

# 1. Azərbaycanda küçə ticarətinin tənzimlənməsi problemləri

Azərbaycanda küçə ticarətinin tənzimlənməsi üçün ilk növbədə bu anlayışa tərifin verilməsi və onun komponentlərinin müəyyənləşdirilməsi vacibdir. Bu ticarət növü adətən kompleks və muxtar şəkildə təznimlənmir. Kompleks tənzimlənmə adətən şəhər meriyası və bələdiyyələr, muxtar tənzimlənmə isə qapalı ərazilərdə oranın idarəsinə məsul olan dövlət və ya bələdiyyə orqanı tərəfindən aparılır. Azərbaycanda küçə ticarətinin ümumi yanaşma əsasında kompleks tənzimlənməsi yoxdur. Muxtar tənzimlənməyə gəlincə, ona Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin daxili qaydalarla İçərişəhər ərazisində küçədə və səkilərdə pərakəndə satış obyektlərinin fəaliyyətinin tənzimləməsini nümunə göstərmək olar.

Küçə ticarətinin müvəqqəti tənzimlənmə praktikası da mövcuddur. Buna misal olaraq paytaxt Bakı şəhərinin və rayonların müxtəlif bazarlarında, küçə və meydançalarında bəzən həftə sonlarında, bəzi hallarda isə bayram öncəsi kənd tərərrüfatı məhsullarının satış yarmarkalarının təşkil olunmasını göstərmək olar.

Azərbaycanda küçə ticarətinin statistikasını təqdim etmək mümkün deyildir. Aprdığımız tədqiqatlar zamanı məlum olmuşdur ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi fərdi sahibkarların (hüquqi şəxs yaratmadan, vergi orqanlarının lisenziyaları əsasında sahibkarlıq fəaliyyəti məşğul olanların) qeydiyyatını aparsa da, ayrıca olaraq səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən istifadə etməklə pərakəndə satış fəaliyyəti ilə məşğul olan sahibkarlarla bağlı statistika və uçot mövcud deyildir.

Azərbaycanda küçə ticarətinin vahid uçot bazasının olmaması ilə yanaşı aşağıda sadalanan digər tənzimlənmə problemləri mövcuddur:

- Hüquqi tənzimlənmə *(ayrıca olaraq qanun, normativ aktlarla kücə ticarətinin idarəolunması qaydaları mövcud deyildir);*
- İnstitutsional tənzimləmə *(Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamenti istisna olmaqla bazarlarda, yarmarkalarda və ticarət mərkəzlərində ticarət və xidmət qaydalarının gözlənilməsinə nəzarəti edən digər dövlət və ya bələdiyyə orqanı müəyyənləşdirilməyib. Bu təşkilat bəzi hallarda küçə ticarətinə nəzarəti həyata keçirir və bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görür);*

• Vergi tənzimlənməsi (*Azərbaycan Respublikası Vergi Məcəlləsində səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən istifadə etməklə pərakəndə satış fəaliyyətinə vergi nəzarəti nəzərdə tutulsa da onun üçün xususi vergi ödənişləri nəzərdə tutulmayıb)*;

• İnzabati tənzimləmə *(İnzibati Xətalar Məcəlləsinə edilən son əlavə və dəyişikliklərdən sonra müəyyən edilməmiş yerlərdə malların satılması və ya işlərin (xidmətlərin) göstərilməsinə görə cərimənin məbləği 80 manat müəyyən olunub.).*

## 1.1. Hüquqi və institutsional tənzimləmə problem

Azərbaycanda küçə ticarətinin tənzimlənməsinin vahid hüquqi, normativ bazası da formalaşmayıb. Bu istiqamətdə ayrıca qurumların daxili qaydaları mövcud olsa da, bütövlükdə bu sahədə dövlət siyasətini xarakterizə edən və tənzimləyən qanunlar qəbul olunmayıb. Bunun bir səbəbi də patyaxtın və digər respublika tabelı şəhərlərin mərkəzləşdirilmiş qaydada idarəolunması ilə bağlıdır. Belə ki, həmin şəhərlərin müstəqilliyinin və muxtar statusunun olmaması və eyni zamanda onların idarəedilməsi üçün seçkili orqanlarının yaradılmaması bu sahədə institutsionallaşma problemi yaradır. Hazırda Bakı Şəhər İcra Hakimiyyətinin strukturu olan Bakı Şəhər Ticarət və Xidmət Departamenti qanunvericiliyə müvafiq olaraq mülkiyyət formasından asılı olmayaraq ticarət, ictimai iaşə, məişət və digər xidmət müəssisələrinin lazımi istismarına və əhaliyə xidmətin təşkil edilməsinə nəzarəti həyata keçirən, səlahiyyətləri daxilində istehlakçıların hüquqlarının müdafiəsini təmin edən dövlət orqanıdır.

*Departamentin əsas vəzifələri aşağıdakılardır:*

- İstehlak və xidmət bazarının tənzimlənməsi, ticarət və xidmət obyektlərinin yerləşdirilməsi, istismarı və fəaliyyət dairəsinə aid olan digər sahələrdə normativ tənzimlənməni həyata keçirmək məqsədilə müvafiq sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;
- İstehlak və xidmət bazarının inkişafı, istehlakçıların hüquqlarının müdafiəsi sahələrində dövlət proqramları və inkişaf konsepsiyalarının həyata keçirilməsini səlahiyyətləri daxilində təmin etmək;
- İstehlak və xidmət bazarında fəaliyyət göstərən kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üzrə səlahiyyətləri daxilində tədbirlər görmək;
- Malların satılması, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi üçün mövcud qanunvericiliyə uyğun yerlər müəyyən etmək və müəyyən edilmiş yerlərdən istifadə

edilməsinə nəzarəti həyata keçirmək, bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

- Ticarət, ictimai iaşə, məişət və digər xidmət, həmçinin istehsal obyektlərinin mövcud qanunvericiliyə uyğun yerləşdirilməsi və istismarına nəzarəti həyata keçirmək, bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- Müəyyən edilməmiş yerlərdəki ticarət və xidmət fəaliyyətinin ləğv edilməsini təmin etmək və bu sahədə pozuntulara yol vermiş şəxslər barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- Ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələrində malların alqı-satqısı, işlərin görülməsi və ya xidmətlərin göstərilməsinin mövcud norma və qaydalarına riayət olunmasına, səlahiyyətləri daxilində istehlakçıların hüquqlarının gözlənilməsinə nəzarəti həyata keçirmək, bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- Mənşəyini, qiymətini və keyfiyyətini təsdiq edən qaimə və digər müşayətedici sənədləri olmayan, yararlılıq, yaxud satış müddəti ötmüş, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən malların (işlərin, xidmətlərin) satışının (görülməsi və göstərilməsinin) qarşısının alınması üçün və pozuntulara yol vermiş şəxslər barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- Ticarət, ictimai iaşə, məişət və digər xidmət obyektlərinin iş rejimlərinin əhalinin tələbatı və hüquqları nəzərə alınmaqla mövcud qanunvericiliyə uyğun müəyyən edilməsinə və həmin obyektlərdə malların (işlərin və xidmətlərin) qiymətlərinin müvafiq qaydada müəyyən edilməsinə və satılmasına (görülməsi və göstərilməsinə) nəzarəti həyata keçirmək və bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- Ticarət, ictimai iaşə, məişət və digər xidmət obyektlərində etil (yeyinti) spirtinin, alkoqollu içkilərin və tütün məmulatının satışına xüsusi razılıqların (lisenziyaların) verilməsini, həmçinin onların satışı qaydalarına əməl olunmasına nəzarəti həyata keçirmək və bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- Bazarlarda, yarmarkalarda və ticarət mərkəzlərində ticarət və xidmət qaydalarının gözlənilməsinə nəzarəti həyata keçirmək və bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

- İstehlakçıların maariflәndirilmәsi, ticarәt, ictimai iaşә, mәişәt vә digәr növ xidmәt sahәlәrindә mütәxәssislәrin hazırlanması üzrә zәruri tәdbirlәr görmәk;
- Qanun pozuntularına yol vermiş şәxslәrin әmәllәrindә cinayәt mәsuliyyәti yaradan hallar olduqda materialları hüquq-mühafizә orqanlarına göndәrmәk;
- Qanunvericiliyin pozulması ilә bağlı sәlahiyyәtlәrinә aid edilmiş inzibati xәtalar haqqında işlәrә baxmaq, tәqsirkar şәxslәr barәdә qanunvericiliklә müәyyәn edilmiş qaydada inzibati tәnbeh tәdbirlәri tәtbiq etmәk.

Göründüyü kimi, sәyyar, bazarlarda vә digәr kütlәvi ticarәt yerlәrindә piştaxtadan, avtomobildәn vә qoşqu vasitәlәrindәn pәrakәndә satış fәaliyyәti ilә mәşğul olan sahibkarlıq fәaliyyәtinin tәnzimlәnmәsi de*partamentin әsas vәzifәlәrinә daxildir.*

## 1.2. Vergi vә inzibatı tәnzimlәnmә problemi

Azәrbaycan Respublikası Vergi Mәcәllәsindә küçә tәcarәtinin sahibkarlıq fәaliyyәti kimi sәyyar, bazarlarda vә digәr kütlәvi ticarәt yerlәrindә piştaxtadan, avtomobildәn vә qoşqu vasitәlәrindәn istifadә etmәklә pәrakәndә satış fәaliyyәti tәsbit olunsa da, onun üçün ayrıca norma müәyyәnlәşdirilmәyib. Lakin küçә ticarәti ilә mәşğul olan sahibkarlar fiziki şәxs qismindә vergi orqanlarından fәrdi sahibkar kimi qeydiyyatdan keçәrәk Bakıda gәlirlәrinun 4%-ni, regionlarda 2%-ni büdcәyә ödәyirlәr. Sahibkarlıq fәaliyyәtinin bu növü ilә qanunsuz olaraq mәşğul olan sahibkarlar İnzibati Xәtalar Mәcәllәsinә edilәn son әlavә vә dәyişikliklәrdә müәyyәn edilmәmiş yerlәrdә malların satılması vә ya işlәrin (xidmәtlәrin) göstәrilmәsinә görә 80 manat cәrimә olunur.

Küçә ticarәti ümumi vә xususi qaydalarla tәnzimlәnә bilәr. Hazırda Azәrbaycanda, xüsusilә dә Bakı şәhәrindә küçә ticarәti әsasәn xüsusi (muxtar) qaydada vә ayrıca seçilmiş әrazidә tәnzimlәnir.

Küçә ticarәtinin xüsusi qaydada vә ayrıca bir әrazidә tәnzimlәnmәsi sahәsindә Azәrbaycan Respublikasının Nazirlәr Kabineti yanında "*İçәrişәhәr*" *Dövlәt Tarix-Memarlıq Qoruğu İdarәsinın fәaliyyәti diqqәtә layiqdir. Belә ki, bu әrazidә suvenir satışı ilә mәşğul olanlar İdarәdәn kirayә götürdüklәri sandıqlara görә aylıq olaraq* 350- 450 manat birdәfәlik ödәniş edirlәr. Bununla yanaşı sahibkarlar hәr ay 20 manat zibillәrın yığılması vә daşınmasına görә, hәr rüb 100 manat isә vergiyә görә ödәniş edirlәr. Bu әrazindә aparılmış müsahibәlәr zamanı sahibkarlar digәr tәşkilatlara rәsmi vә ya qeyri-rәsmi ödәnişlәr etmәdiklәrini bilridmişlәr.

Küçə ticarətinin muxtaq qaydada digər tənzimlənməsi metro stansiyalarının keçidində mal satanlara tətbiq olunur. Baki metropoliteni metro keçidlərində yerləşən ticarət obyektlərinin 1 km metrinə hər ay 100 manat vəsait toplayırlar. Bundan əlavə, həmin ərazidə satış ilə məşğul olan sahibkarlardan vergi adı ilə ayda 75 manat vəsait yığılır. Bu ödəniş standart xarakter daşıyır və obyektin sahəsindən asılı deyil. Bu ərazidə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların fəaliyyətinə də digər nəzarət və yoxlama orqanları müdaxilə etmir. Metroda isə sahibkarlar uyğun yeri seçdikdən sonra rəsmi olaraq icarə pulunu aylıq olaraq bank hesabına köçürür. Əlavə xərc isə ancaq gecə mühafizəsinə verilir. Metrodakı ticarət məntəqələrinin qarşılaşdığı çətinliklər isə icarə haqqının yüksək olması və iş şəraitsizliyidir (istilik, hava).

Metro keçidlərində yerləşən obyektlərin "alqı-satqısı" da aprılır. Mülkiyyət mənsubiyyətini təsdiq edən sənədə malik olmayan obyektlərin satışı sövdələşmə yolu ilə sənədləşmə olmadan aparılır. Burda qiymət alıcı və satıcı arasında razılaşma ilə tənzimlənir və stansiyalardan asılı olaraq 5 000 manatdan 10 000 manatadək dəyişır.

Tədqiqat çərçivəsində aparılmış müsahibələr nəticəsində məlum olmuşdur ki, İçəri şəhər ərazisi və metro keçidləri istisna olmaqla digər yerlərdə küçə ticarəti ilə məşğul olanlar dövlətin müxtəlif nəzarət və yoxlama orqanlarına fərqli məbləğlərlə ödənişlər edirlər. Bu ödənişlər həmçinin fəaliyyətə başlama və fəaliyyət dövrlərinə görə də fərqlənir. Belə ki, fəaliyyətə başlayanlar aşağıdakı kimi qeyri-rəsmi ödənişlər edirlər.

**Cədvəl 1.Fəaliyyətə başlamaq üçün qeyri-rəsmi ödənişlər**

| Fəaliyyət növləri | İcra hakimiyyəti | Polis | MKİS | Cəmi |
|---|---|---|---|---|
| Ərzaq satışı | 500 | 200 | 100 | 800 |
| Meyvə satışı | 300 | 500 | 200 | 1000 |
| Ət satışı | 600 | 400 | ---- | 1000 |
| Təmir sexi | 200 | 200 | 100 | 500 |
| Un məmulatları satışı | 100 | 100 | ---- | 200 |

Küçə ticarəti ilə məşğul olan sahibkarlar arasında keçirilən müsahibələr göstərmişdir ki, fəaliyyət göstərdikləri dövrdə onlar aşağıdakı orqanlara qeyri-rəsmi ödənişlər edirlər.

**Cədvəl 2. Sahibkarlıq fəaliyyəti dövründə edilən qeyri-rəsmi ödənişlər**

| | İcra hakimiyyəti | Polis | MKİS | Ticarət və Xidmət departamenti | Vergilər Nazirliyi | Gigiyena və Epidemiologiya İdarəsi | Baytarlıq İdarəsi | Standartlaşdırma İdarəsi | Nəqliyyat Nazirliyi | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Ərzaq satışı** | 50 | 20 | 10 | 20 | 20 | 10 | ---- | 10 | ---- | 140 |
| **Meyvə satışı** | 50 | 50 | 10 | ---- | ---- | 10 | ---- | ---- | ---- | 120 |
| **Ət satışı** | 50 | 20 | ---- | ---- | 20 | 20 | 20 | ---- | ---- | 130 |
| **Təmir sexi** | ---- | 50 | ---- | ---- | ---- | ---- | ---- | ---- | 50 | 100 |
| **Un məmulatları satışı** | ---- | 20 | 10 | ---- | ---- | 10 | ------ | 20 | ---- | 60 |
| **Qəzet satışı** | 50 | 50 | | | | | | | | 100 |

## 2. Küçə ticarətinə dair beynəlxalq təcrübə

Təcrübəsi ilə tanış olduğumuz ölkələrdə küçə ticarətinə fərqli yanaşmalar, onun tənzimlənməsinin müxtəlif varinatları müşahidə olunmuşdur. Asiya və Yaxın Şərqdən fərqli olaraq küçə ticarətinə Avropanın bır sıra ölkələrində biznes məqsədli deyil, ənənəvi və mədəni məsələ kimi baxılır. Xüsusilə də Avropanın şimalında yerləşən liman şəhərlərində (Stokholm, Amsterdam və s.) küçə ticarətinə şəhər təsərrüfatının ayrılmaz hissəsi olan mədəni və tarixi prizmadan yanaşma mövcuddur. Avropanın cənubunda yerləşən turist şəhərlərində (Barselona, Roma və s.) isə küçə ticarəti turistlərin cəlb edilməsində əhəmiyyətli rol oynayır. Yaxın Şərqin, cənub-şərqi Asiyanın, eləcə də keçmiş SSRİ-nin bir sıra ölkələrində xüsusilə də miqrantların cəlb olunduğu küçə ticarəti daha çox gəlir qazanmaq məqsədli olmaqla yanaşı həm də gizli iqtisadiyyatın ayrılmaz elementi hesab olunur. Odur ki, bu ölkələrdə yerli və mərkəzi hökümətlər küçə ticarətinin qarşısının alınmasına çalışır və onun genilənməməsi üçün məhdudiyyətlər tətbir edirlər. Bir çox ölkələrdə küçə ticarətinin hətta iri şəhərlərin simasını eybəcərləşdirdiyini görə yasaq da ediblər.

Avropa Birliyinə üzv olan ölkələrdə tətbiq olunan küçə ticarəti modelləri araşdırmamız üçün daha maraq doğurur. Bu ölkələrdə küçə ticarəti, xüsusilə də bayram öncəsi və bayram günlərində daha geniş yayılıb. Ayrı-ayrı ölkələrin təcrübəsində oxşarlıq olsa da fərqli cəhətlər də az deyildir. Oxşar cəhətlərə aşağıdakılar daxildir:

- Milad bayramı öncəsi şəhərin mərkəzi küçə və meydançalarında bayram yarmarkaları və çadırları qurulur;
- Ənənəvi olaraq ixtisaslaşmış kənd təsərrüfatı məhsulları üzrə yarmarkalar təşkil olunur.

Təcrübəsini öyrəndiyimiz Avropa ölkələrindən **İtaliyada** küçə ticarətinin tənzimlənməsi sahəsində mövcud praktika isə başqa aspektdən diqqəti cəlb edir. Belə ki, İtaliyada küçə ticarəti ilə günün müəyyən saatlarında (saat 17:00-dən 21:00 –dək) məşğul olmaq olar.

Son illər **Çex Respublikasının paytaxtı Praqada** küçə ticarətinə qarşı fəal mübarizə aparılır. Şəhər rəhbərliyinin fikrincə, küçə ticarəti şəhərin görünüşçünü eybəcərləşdirir, sanitar-gigiyenik qaydaların pozulmasına səbəb olur. Praqada şəhərin mərkəzi küçələrindən çadırların və piştaxtaların yığılması mütəmadi olaraq həyata keçirilir. Son 10 ildə 750 ticarət nöqtəsindən 250-dən çoxu mərkəzi küçələrdən yığışdırılıb.

**İspaniyanın tursitik bölgəsi Barselonada** da küçə ticarəti ilə məşğul olanların sayı az deyil. Küçə ticarətçilərinin ən çox toplandığı meydan Katalon meydanıdır. Burada rəssamlar, gülsatanlar, balsatanlar üçün ayrıca bazarlar var. Ev heyvanları bazarı isə şəhərin düz mərkəzində yerləşir. Küçə ticarətçilərinin ən çox məskunlaşdığı yerlər metro çıxışları və intensiv piyada keçidləridir.

Tənzimlənməyən küçə ticarəti indiki Barselonanın ən xarakterik əlamətidir. Burada küçə ticarəti ilə əsasən emiqrantlar – afrikalılar, pakistanlılar, ərəblər məşğul olur.

**İsveçin paytaxtı Stokholmda** əsasən mövlud yarmarkaları keçirilir. Son illər hətta adi mağaza sahibləri belə küçələrə üz tuturlar. Maraqlıdır ki, bu cür qarmaqarışıqlıq şəhər rəhbərliyi tərəfindən sıxışdırılmır. Əksinə yaxın kəndlərdən meyvə və tərəvəzin gətirilib satılmasına belə imkan yaradılır.

**Çinin xüsusi inzibati rayonu olan Honkonq** rüsumsuz liman kimi tanındığından buraya kapitalın və işadamlarının fasiləsiz axını davam edir. Honkonq dünyada küçə ticarətinin ən çox inkişaf etdiyi məkan kimi tanınır. Honkonqun mərkəzi küçə kafeləri, piştaxtalar tərəfindən zəbt olunub. Qoşqu vasitələrində təzə yeməklər hazırlanır. Bu yeməklər çox ucuz olduğundan turistlər tərəfindən ona böyük tələbat var.

**Yaponiyada** küçə ticarəti daha çox ərzaq üzrə ixtisaslaşıb. Tokioda küçə ticartərtinin bir qolu olan balıq bazarında gündə 3 ton təzə balıq satılır.
Yaponiyada küçə ticarətini fərqləndirən daha bir amil onun avtomatlaşdırılmasıdır. Yaponiya avtomatlardan olunan satışa görə dünyada birinci yeri tutur. Bu ölkədə 23 adama bir avtomat düşür. Özü də bu avtomatlar bizim bildiyimiz su və içkilər satan avtomatlardan fərqli olaraq yumurta, çətir, gül dəstəsi, hətta buz da satır.

**Türkiyə** təcrübəsində səyyar yarmarkalar vasitəsilə həftənin müxtəlif günlərində satışlar təşkil olunur. Bunlar bələdiyyələr tərəfindən təşkil olunur və tənzimlənir.

Təcrübəsi ilə tanış olduğumuz ölkələrin küçə ticarətinın xarakteristikasını aşağıdakı cədvəldəki kimi qruplaşdırmaqla vermək mümkündür.

**Cədvəl 3. Müxtəlif ölkələrdə küçə ticarətinin fərqli və oxşar xüsusiyyətlərinin müqayisəli xarakteristikası**

| | Ölkə | Kücə ticarətinə icazə verildiyi yerlər | Küçə ticarətində satılan əsas məhsullar | Küçə ticarətinin tipi |
|---|---|---|---|---|
| 1 | Çex Respublikası | Xüsusi meydanlar, bazarlar | Ərzaq məhsulları, qəzet, paltar, texnika, küçə yeməkləri, güllər, | Küçə bazarları, çadırlar |

| | | | | |
|---|---|---|---|---|
| | | | suvernirlər, antik əşyalar | |
| 2 | İspaniya | Xüsusi meydanlar, məhəllələr, bazarlar | Ərzaq məhsulları, qəzet, paltar, küçə yeməkləri, güllər, suvernirlər, antik əşyalar,ev heyvanları, rəsm əsərləri | Küçə bazarlar, kiosklar, xususi avtomobillərdə satış, piştaxtlarda satış |
| 3 | İsveç | Xüsusi meydanlar, bazarlar, kücələr, dizayner yarmarkaları | Ərzaq məhsulları, qəzet və jurnallar, güllər, sənətkarlıq əşyaları, əl işləri, incəsənət işləri | Küçə bazarları, kiosklar, dizayner yarmarkaları |
| 4 | İtaliya | Xüsusi meydanlar, bazarlar | Ərzaq məhsulları, qəzet, küçə yeməkləri, güllər, suvernirlər, antik əşyalar | Küçə bazarlar, kiosklar, piştaxtlarda satış |
| 5 | Çin | Xüsusi meydanlar, bazarlar | Ərzaq məhsulları, paltar, texnika, zinət əşyaları, küçə yeməkləri, güllər, ev heyvanları | Küçə bazarları, piştaxtalar, çatırlar, səyyar mətbəxlər |
| 6 | Yaponiya | Xüsusi bazarlar | Ərzaqməhsulları, paltar, texnika, qab-qacaq, kitablar, küçə yeməkləri | Küçə bazarları, ticarət avtomatları, kiosklar, çadırlar, piştaxtalar, |
| 7 | Türkiyə | Xüsusi meydanlar, bazarlar, piyada keçidləri, məhəllələr | Ərzar məhsulları, paltar, zinət əşyaları, xalçalar, ətriyat əşyaları, texnika | Küçə bazarları, kiosklar, piştaxttalar |
| 8 | Rusiya | Bazarlar, piyada keçidləri | Ərzar məhsulları, paltar, texnika, ev heyvanları | Küçə bazarlar, kiosklar, xususi avtomobillərdə satış, piştaxtlarda satış |

**Beynəlxalq təcrübə göstərir ki, küçə ticarəti əlavə məşğulluq və qazanc imkanları yaradır, bu ticarət növü vasitəsilə məhsulların ticarəti daha kompakt, asan şəkildə təşkil olunur, eyni zamanda sahibkarların və istehlakçıların xərcləri azalmaqla yanaşı, sənətkarlığın və xalq yaradıcılığının inkişafına stimul yaranır.**

# 3. Kücə ticarətçiləri ilə dərinləşdirilmiş müsahibə və onun nəticələri

Küçə ticarəti ilə bağlı dərinləşdirilmiş müsahibə ərzaq, qeyri-ərzaq, ət, meyvə, un məmulatları, təmir sexi, metronun giriş və çıxışlarındakı satış məntəqələrini əhatə etməklə 22 sahibkar arasında keçrilib. Müsahibə aşağıdakı suallar əsasında qurulub.

1. *Küçə ticarətinə başlamaq üçün hansı mərhələlər var və haralara müraciət edirsiniz?*
2. *Fəaliyyətə başlamağa rəsmi və qeyri-rəsmi nə qədər xərc tələb olunur?*
3. *Fəaliyyət göstərdiyiniz zaman hansı rəsmi və qeyri-rəsmi ödənişlər olur?*
4. *Fəaliyyətinizə hansı inzibati baryerlər var?*

Küçə ticarətiylə bağlı dərinləşdirilmiş müsahibə Bakı şəhərində və onun müxtəlif ərazilərində ərzaq, qeyri-ərzaq, ət, meyvə, un məmulatları satışı, təmir xidməti ilə məşğul olan sahibkarlar arasında keçirilib. Bununla yanaşı, metro stansiyalarının keçidində və İçərişəhər ərazisində xırda sahibkarlıqla məşğul olanlar da müsahibəyə cəlb olunub.
Müsahibələr zamanı məlum olmuşdur ki, kiçik sahibkarlar küçə ticarətinə başlamaq üçün ilk növbədə, icra hakimiyyəti ilə, polislə, sonra isə MKİS-ilə razılığa gəlməli və onlara aşağıdakı sxemdə göstərilən ardıcıllıqla qeyri-rəsmi ödənişlər edilməlidir.

Fəaliyyətə başlamaq üçün qeyri-rəsmi olaraq fəaliyyət növləri üzrə ödənişlər aşağıdakı sxem üzrə həyata keçirilir:

**1.Ərzaq satışı:** İcra nümayəndəliyi → Polis İdarəsi→ MKİS → Ticarət Departamenti→ Vergi orqanı → Gigiyena və Epidemiologiya İdarəsi → Standartlaşdırma, Metrologiya və və Patent üzrə Dövlət Komitəsinin müvafiq strukturları
**2.Meyvə və tərəvəz satışı:** İcra nümayəndəliyi → Polis İdarəsi→ MKİS →Gigiyena və Epidemiologiya İdarəsi
**3.Ət satışı:** İcra nümayəndəliyi → Polis İdarəsi→ Vergi orqanı→ Gigiyena və Epidemiologiya İdarəsi→ Baytarlıq İdarəsi
**4.Təmir sexi:** Polis İdarəsi→ Nəqliyyat Nazirliyinin müvafiq strukturları
**5.Un məmulatları satışı:** Polis İdarəsi → MKİS →Gigiyena və Epidemiologiya İdarəsi → Standartlaşdırma, Metrologiya və və Patent üzrə Dövlət Komitəsinin müvafiq strukturları

**6.Qəzet satışı:** İcra nümayəndəliyi → Polis İdarəsi

**Fəaliyyətləri dövründə sahibkarlar aşağıdakı ardıcıllıqla ödənişlər edirlər.**

**1.Ərzaq satışı:** Vergi orqanı→ Dövlət Sosial Müdafiə Fondunun strukturları→ “Bakıelektrikşəbəkə”→ Bələdiyyə→ Baytarlıq İdarəsi → Gigiyena və Epidemologiya İdarəsi

**2.Meyvə və tərəvəz satışı:** “Bakıelektrikşəbəkə”→ Bələdiyyə→ Gigiyena və Epidemologiya İdarəsi

**3.Ət satışı:** “Bakıelektrikşəbəkə”→ Baytarlıq İdarəsi → Gigiyena və Epidemologiya İdarəsi

**4.Təmir sexi:** “Bakıelektrikşəbəkə”→ Bələdiyyə

**5.Un məmulatları satışı:** “Bakıelektrikşəbəkə”→ Gigiyena və Epidemologiya İdarəsi

**6.Qəzet satışı:** İcra nümayəndəliyi → Polis İdarəsi

**Müsahibələr küçə ticarətinin aşağıdakı oxşar cəhətlərini aşkara çıxarmışdır.**

**1.** Ticarətə başlamaq üçün qeyri-rəsmi olaraq ödənişlərin olması;
**2.** İşlədiyi zaman aylıq rəsmi və qeyri-rəsmi ödənişlər etməsi;
**3.** Küçə ticarətində qiymətlərin bazar və ticarət mərkəzlərindən daha ucuz olması;
**4.** Ticarət məntəqələrində məhsul və xidmətin keyfiyyətin nisbətən aşağı olması;
**5.** Əhalinin daha çox aztəminatlı təbəqəsinin bu ticarət növü ilə məşğul olması;

Küçə ticarətiylə məşğul olan sahibkarların başlıca çətinliyi rayon icra hakimiyyəti və rayon polis şöbəsi ilə bağlıdır. İcra hakimiyyəti dükanlara rəsmi sənəd vermədiyinə görə, sahibkar hər il icra nümayəndəliyinə qeyri-rəsmi olaraq əlavə ödənişlər ödəmək məcburiyyətində qalır.

Ət kəsimiylə məşğul olan sahibkarların əksəriyyəti qanunsuz olaraq “Kənd təsərrüfatı istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında” 27 noyabr 2001-ci il tarixli, 222-IIQ saylı Azərbaycan Respublikası Qanunun verdiyi imkanlardan faydalanırlar. Sənədə əsasən, kənd təsərrüfatı məhsullarını istehsal edən şəxslər 3 il müddətinə hüquqi şəxslər üzrə hüquqi şəxslərin mənfəət vergisi, əlavə dəyər vergisi, sadələşdirilmiş vergi, eyni zamanda istehsal proseslərinə cəlb olunan əmlak üzrə əmlak vergisindən azad olunublar. 3 ildən bir bu güzəştlərin müddətini uzadan qərar qəbul olunur.

Sonuncu qərar 2009-cu il 1 yanvar tarixində qəbul olunub. Beləliklə, güzəştlərin sonuncu tarixi 1 yanvar 2014-cü ildir.

Ət kəsimi ilə məşğul olan sahibkarın dövriyyəsi adətən, sadələşdirilmiş vergiyə uyğun olduğundan o, dövriyyədən Bakıda 4%, regionlarda 2% vergi ödəməli, eyni zamanda, işçilərin sayına uyğun olaraq müvafiq sosial ayırmaları həyata keçirməli, üstəlik, əmlak vergisi verməlidir. Sahibkar çıxış yolunu vergi, polis, icra hakimiyyəti və digər orqanlara qeyri-rəsmi ödənişlər etməklə mağazanı fermer təsərrüfatının obyekti kimi göstərməkdə görür. Bununla da yuxarıda adı çəkilən əsas vergilərdən azad olur. Əlavə olaraq Baytarlıq İdarəsinə və Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşlarına rəsmi və qeyri-rəsmi ödənişlər edirlər.

Ərzaq mağazalarının çətinliyi isə reklam tipli lövhənin, soyuducunun mağazanın qarşısına qoyulmasına icazə verilməməsidir ki, bu da əlavə çətinliklər yaradır. Təmir sexi ilə bağlı isə Nəqliyyat müfəttişləri təmirə gələn maşınlara görə sexdən əlavə ödənişlər istəyirlər.

# 4. Nəticə və tövsiyələr

Nəticə olaraq qeyd etmək istərdik ki, küçə ticarəti hansısa dövlət orqanlarının istədiyi formada həyata keçirilməli deyil, küçə ticarəti haqqında əsasnamələr hazırlanmalı və bu ticarət müvafiq yerlərdə rəsmi formada həyata keçrilməlidir. İndiki halda küçə ticarətçilərindən alınan məhsulların nə keyfiyyət göstəricisi məlum olur, nə də qazancdan dövlət büdcəsinə vergi ödənilir. Hazırda qanunla tənzimlənməyən bu cür ticarət növünə Bakı şəhərində çox yerdə rast gəlmək mümkündür. Xüsusilə də, metro stansiyalarının çıxışı, əhalinin gur yaşayış yerlərində küçə ticarəti çoxluq təşkil edir. Odur ki, *bu sahənin düzgün tənzimlənməməsi nəticəsində aşağıdakı problemlər müşahidə olunur*:

- Qeyri-formal iqtisadiyyat genişlənir;
- Vergidən yayınma halları artır;
- Sosial ödənişlərdən yayınma imkanı yaranır;
- Korrupsiya üçün münbit şərait yaranır;
- Mənşəyi bilinməyən, keyfiyyətsiz və müddəti keçmiş malların satışı üçün imkanlar yaranır;
- Nəqliyyat vasitələrinin və pyadaların hərəkəti çətinləşir;
- Şəhərin görkəminə xələl gəlir;
- İstehlakçıların hüquqlarını qorumaq imkanları azalır;
- Satıcıların əmək və sosial hüquqlarını təmin etmək sahəsində çətinliklər yaranır.

**Aparılmış tədqiqatın tapıntıları və nəticələri əsasında aşağıdakı tövsiyələr irəli sürülür:**

**Huquqi bazanın yaradılması istiqamətində:**

- Tənzimləyici qanunverici və normativ bazanın yaradılmalı;
- Küçə ticarəti anlayışı və onun sərhədləri müəyyənləşdirilməli.

**İnstitutsional bazanın formalaşdırılması sahəsində:**

- Kücə ticarətinin tənzimlənməsi sahəsində institusional əsasda səlahiyyətlər bölgüsünə yenidən baxılmalı və bələdiyyələrin bu sahənin idarəedilməsi prosesinə cəlb olunmalı.

**Vergi tənzimlənməsi sahəsində:**

- Küçə ticarətinin vergi tənzimlənməsi sahəsində patent-vergi və ya lisenziya sisteminin tətbiqi.

**Sahibkarların hüquqlarının qorunması sahəsində:**

- Küçə ticarətinin təşkili məsələləri ilə bağlı fərdi sahibkarlar arasında mariflənd irmə işləri təşkil edilməli;
- Küçə ticarəti ilə məşğul olan işçiləri əhatə edən ayıca sosial sığorta növünün tətbiq olunması;
- Kücə ticarəti ilə məşğul olan fərdi shibkarların birlikləri və assosiasiyaları yaradılmalı;
- Kücə ticarəti ilə məşğul olan fərdi sahibkarların birliklərinin və assosiasiyaları Streetnet İnternasional [1] təşkilatına üzv olmalı və onların beynəlxalq şəbəkəyə çıxışı təmin edilməlidir.

---

[1] *2002-ci ildə Cənubi Afrikanın Durban şəhərində yaranıb. Təşkilat küçə ticarəti ilə məşğul olan insanların problemlərinin araşdırılması ilə məşğuldur. 41 ölkədən 48 təşkilat assosiasiyanın üzvüdür.Azərbaycandan üzv yoxdur.*